İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# BƏYAZ GECƏLƏR

(Bir xəyalpərəstin xatirələrindən)

FYODOR DOSTOYEVSKİ

Rus dilindən tərcümə:

Yusif Əzimzadə

parlaq
İMZALAR

| | |
|---|---|
| Baş redaktor: | Toğrul MUSAYEV |
| Redaktor: | Məqsəd NUR |
| Korrektorlar: | Turac ELDARQIZI<br>İlahə ƏHMƏDOVA |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| Cildin dizayneri: | Ramin HƏSƏNƏLİZADƏ |

**Фёдор Михайлович Достоевский**
**БЕЛЫЕ НОЧИ**

**Fyodor Mixayloviç Dostoyevski**
**BƏYAZ GECƏLƏR**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2026, 112 səh. / IV nəşr

**© Фёдор Михайлович Достоевский / 1848**
**© Parlaq İmzalar MMC / 2023**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 127
Yoldaş seriyası | 7

ISBN 9952580983

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

16+

Mətbəə: "AVE PRİNT" MMC
FEVRAL / 2026

**Fyodor Dostoyevski** 1821-ci il noyabrın 11-də Moskvada anadan olub. Dostoyevski uşaq yaşlarından Puşkin, Qöte və Servantesin əsərləri ilə tanış olub. 1846-cı ildə ilk romanını – "Yoxsul insanlar"ı yazıb. Bu roman haqqında dövrün məşhur tənqidçisi Belinski müsbət fikirlər səsləndirib. Amma növbəti romanları ədəbi ictimaiyyət tərəfindən bir o qədər də bəyənilməyib.
Yazıçıya dünya şöhrəti gətirən əsəri – "Cinayət və cəza" 1866-cı ildə çap olunub. Bunun ardınca "İdiot" (1869) və "Şeytanlar" (1872) romanlarını yazıb.
Dostoyevski, demək olar, bütün həyatı boyu ruhi böhrandan çıxa bilməyib, daim borclu olduğu insanlar tərəfindən sıxışdırılıb. Dünya ədəbiyyatının böyük klassiki 1881-ci il fevralın 9-da vəfat edib.

**Yusif Əzimzadə** 1917-ci il fevralın 22-də Bakıda anadan olub. N. Nərimanov adına Sənaye Texnikumunun elektrik-mexanika şöbəsində təhsil alıb. M. Qorki adına Bakı Gənc Tamaşaçılar Teatrında ədəbi hissənin şöbə müdiri, "Azərnəşr" və "Uşaqgəncnəşr"də bədii ədəbiyyat şöbəsinin redaktoru, Azərbaycan Yazıçılar Birliyində bədii tərcümə üzrə məsləhətçi redaktor olub.
Onun tərcümə etdiyi pyeslər (S. Mixalkovun "Qırmızı qalstuk", Y. Soloviçin "Qəribə dilənçi") Azərbaycan teatrlarında səhnələşdirilib. Yazıçı-tərcüməçi 1984-cü il mart ayının 6-da Bakıda vəfat edib.

*Bəlkə, bundan ötrü yaranmışdı o,*
*Bütün həyatında yalnız bircə dəm*
*Olaydı qəlbinə ən yaxın həmdəm!..*

***İvan Turgenev***

# BİRİNCİ GECƏ

Gözəl bir gecə idi, sevimli oxucum, elə bir gecə ki, belə gecələri biz ancaq gəncliyimizdə yaşayırıq. Səma elə ulduzlu, elə parlaq idi ki, ona baxan qeyri-ixtiyari öz-özünə bu sualı verəcəkdi: “Necə ola bilər, belə bir səmanın altında qaraqabaq və şıltaq insanlar yaşayır?” Bu da gənclərə xas bir sualdır, sevimli oxucum, özü də yeni gənclərə, ancaq, Allah eləsin ki, bu sual sizin qəlbinizdə tez-tez oyansın!.. Şıltaq və qaraqabaq cənablar haqqında danışarkən mən, həmin gün ərzində özümün xoşniyyətli davranışımdan da söhbət açmaya bilmərəm. Səhərdən hansısa qəribə bir kədər mənə əzab verməyə başladı. Birdən mənə elə gəldi ki, hamı məni tərk edir, hamı məndən uzaqlaşır. Əlbəttə, haqlı olaraq soruşa bilərlər: “Hamı, yəni kim?” Bu ona görə haqlı sualdır ki, səkkiz ildən bəri Peterburqda yaşadı-

ğıma baxmayaraq, demək olar ki, özümə heç bir tanış tapa bilməmişəm. Lakin tanış mənim nəyimə lazımdır? Onsuz da bütün Peterburq mənə tanışdır; bax elə bunun üçündür ki, bütün Peterburq birdən yığışıb şəhərkənarı bağ evlərinə köçərkən mənə elə gəldi ki, hamı məni tərk edir. Tək qalmaq məni qorxutdu və nə üçün darıxdığımı bilməyərək dərin bir kədər içərisində üç gün boyunca şəhəri gəzdim. Nevskiyə, xiyabana, sahil küçəsinə, xülasə, hara getdimsə, bütün il ərzində həmin yerdə, həmin saatda rast gəlməyə adət etdiyim adamların heç birisini görə bilmədim. Şübhəsiz, onlar məni tanımırlar, lakin mən onları tanıyıram. Yaxşı tanıyıram; demək olar ki, üz-gözüm onlara öyrəşib, onlar şən olarkən mən də baxıb sevinirəm, qanları qara olanda isə qüssələnirəm. Mən Allahın hər günü, müəyyən saatda, Fontankada üz-üzə gəldiyim bir qoca ilə, demək olar ki, dostlaşmışam. Onun sifəti təkəbbürlü və düşüncəlidir; həmişə öz-özünə nə isə pıçıldayır və sol əlini havada yelləyir, sağ əlində isə uzun, qızıl dəstəli əl ağacı var. O da mənimlə mehribandır və ürəkdən mənə hörmət bəsləyir. Əgər müəyyən saatda Fontankanın həmin yerində qoca dostuma rast gəlməsəm, əminəm ki, o kədərlənər. Bax buna görə də biz bəzi hallarda, xüsusilə kefimiz yaxşı olduqda bir-birimizə az qala baş əyib keçirik. Bu yaxınlarda, arada tam iki gün görüşməyib, üçüncü gün bir-birimizə rast

gəldiyimiz zaman salamlaşmaq üçün papaqlarımızı çıxarmaq istəyirdik ki, xoşbəxtlikdən, vaxtında ayıldıq, əllərimizi aşağı saldıq və təəssüflə bir-birimizin yanından ötüb-keçdik. Mənə evlər də tanışdır. Yol ilə gedərkən tanıdığım hər bina sanki məndən qabağa yüyürüb küçənin başında durur, bütün pəncərələrindən mənə baxır və az qala deyir: "Salam. Necəsiniz? Mən də, Allaha şükür, sağ-salamatam, may ayında üstümə bir mərtəbə də artıracaqlar", yaxud: "Əhvalınız necədir? Sabahdan məni təmirə verirlər", ya da: "Az qalmışdı ki, yanıb kül olum, özüm də bərk qorxmuşam" və i. a. Onların içərisində mənim sevimli, yaxın dostlarım var; bu yay fəsli onlardan biri memarın yanında müalicə olunmaq fikrindədir. Mən də hər gün bilə-bilə gedib yoxlayacağam ki, başdansovdu müalicə etməsinlər, Pərvərdigara, sən özün onu hər bəladan qoru!.. Açıq çəhrayı rəngli, gözəl, kiçicik bir evin başına gələn hadisəni heç vaxt unutmaram. Bu, daşdan tikilmiş balaca bina elə qəşəngdir ki, mənə xüsusi mehribanlıqla, qonşuluğundakı kobud binalara isə məğrur-məğrur baxır, hər dəfə onun qabağından ötəndə ürəyim fərəhlə dolur. Keçən həftə yenə tanış küçə ilə gedirdim, dönüb dostuma baxanda birdən qulağıma şikayət dolu qışqırıq gəldi: "Ah, məni sarı boya ilə rəngləyirlər!" Canilər! Vəhşilər! Onlar heç bir şeyə – nə sütunlara, nə də qapı-pəncərə haşiyələrinə rəhm etməmişdilər, mənim

dostum başdan-ayağa bülbül kimi sapsarı idi. Bu hadisə kefimi elə pozdu ki, hirsimdən gözlərim yaşardı; mən üzünə Cahanşümul İmperiyanın[1] rəng çəkilmiş, eybəcər hala salınmış zavallı dostumla görüşmək, ona baxmaq üçün indi də özümdə cürət tapa bilmirəm.

Oxucum! Artıq siz mənim bütün Peterburqla necə tanış olduğumdan xəbərdarsınız.

Yuxarıda söylədiyim kimi, mən öz narahatlığımın səbəbini öyrənənə qədər üç gün əzab çəkdim. Küçəyə çıxdığım zaman bu əzab daha da artırdı. (O yoxdur, bu yoxdur, bəs o birisi hara gedib?) Evdə də elə darıxırdım ki, özümə yer tapa bilmirdim. Bunun səbəbini öyrənmək üçün iki gecə düşüncələrə qərq oldum. Yaşadığım bu kiçicik küncdə nəyim çatışmır axı? Nə üçün evdə olarkən özümü pis hiss edirəm? Bu fikirlərlə dönüb yaşıl rəngli, his basmış divarlara, Matryonanın "tükənməz işgüzarlığı" sayəsində hörümçək torları ilə örtülmüş tavana heyrətlə baxırdım, bütün ev əşyasını nəzərdən keçirirdim, hər stulu yoxlayırdım, deyirdim, bəlkə, darıxmağımın səbəbi bunlardır? (Stullardan hansısa həmişəki yerindən tərpənəndə dərhal əsəbiləşirdim.) Dəfələrlə pəncərədən boylanıb küçəyə tamaşa edirdim, ancaq əbəs yerə, heç bir yüngüllük duymurdum! Mən hətta Matryonanı çağırıb hörümçək

1. Vaxtilə Çin İmperatorluğunun bayrağında sarı fonda əjdaha təsvir edilmişdi, "Cahanşümul İmperiya" isə Çinin qədim adıdır. – Red.

torlarını təmizləmədiyinə və ümumiyyətlə, səliqəsiz olduğuna görə məzəmmət etdim; o isə sadəcə heyrətlə mənə baxdı və bir söz demədən çıxıb getdi, amma hörümçək torları hələ də əvvəlki qayda ilə öz yerlərində asılı qalıb. Nəhayət, bu gün səhər işin nə yerdə olduğunu başa düşdüm. Axı onlar məni tək qoyub şəhər kənarındakı bağ evlərinə əkilirlər! Belə yersiz ifadələrə görə sizdən üzr istəyirəm, lakin elə halda idim ki, dəbdəbəli sözlər yadıma da düşmədi... Çünki hamı – Peterburqda olan hər kəs bağa köçmüş və ya köçməyə hazırlaşırdı; özünə fayton tutan mötəbərlər, hər hansı nüfuzlu bir cənab isə bir anlığa gözümün qabağındaca hörmətli bir ailə başçısına çevrilirdi; bu cənab öz gündəlik öhdəliklərini yerinə yetirdikdən sonra ailəsilə birlikdə şəhər kənarındakı bağına köçürdü; indi qarşımdan keçən hər kəs fövqəladə bir görkəm almışdı, elə bil o, rast gəldiyi adamlara demək istəyirdi ki: “Cənablar! Biz burada elə-belə, müvəqqəti yaşayırıq, iki saatdan sonra bağa köçəcəyik!” Bir də görürdüm ki, kiminsə nazik, qar kimi bəyaz barmaqları tanıdığım bir evin pəncərə şüşəsini içəridən tıqqıldadır, sonra pəncərə açılır, gözəl bir qız küçəyə boylanır, gülsatanı çağırır, o saat bilirdim ki, qız bu gülləri şəhərin cansıxıcı bürküsündə baharın gözəlliyi və çiçəklərin ətrilə nəşələnmək üçün almır, ona görə alır ki, tezliklə o da bağ evinə köçəcək və bu gülləri də özü ilə aparacaq. Hələ

bu bir yana dursun, mən, necə deyərlər, öz kəşflərimdə elə yeni-yeni uğurlar əldə etmişdim ki, kimin hansı şəhərkənarı ərazidə yaşadığını bir baxışla, yanılmadan təyin edə bilirdim. Kamennı və Aptekarski adalarının, yaxud Peterqof yolu ətrafının sakinləri öz incə hərəkətləri, qəşəng yay geyimləri və şəhərə gələrkən mindikləri gözəl dilicanlarla[1] başqalarından fərqlənirdilər. Parqolovo və ondan bir az uzaqda yaşayanlar ilk baxışda insanı öz ehtiyatlı və mötəbər davranışları ilə "cəlb edirdilər"; Krestovski adasından gələnlərin üzü isə adətən həmişə fərəhli olurdu. Bəzən küçədə dayanıb bağ evlərinə gedənlərə tamaşa edirdim, budur, köç arabalarının mehtərləri əllərində cilov, uzun bir cərgə boyu düzülüb atların yanınca tənbəl-tənbəl yeriyir, arabalar hər cür əşya ilə – masa, kürsü, türk malı və yaxud başqa yerdən gətirilmiş divan, o cümlədən digər ev ləvazimatı ilə komalanıb, hələ bu şeylər az imiş kimi yükün lap yuxarısında arıq bir aşpaz qadın əyləşib ağasının malını göz bəbəyi kimi qoruyur; bu yanda isə ev avadanlıqları ilə ağzına qədər yüklənmiş qayıqlar Neva, ya da Fontanka sularında Qara çaya tərəf, yaxud adamlara sarı üzürlər, bu arabalara və qayıqlara baxdıqca onlar gözümdə daha da çoxalır, sayları onu, yüzü keçirdi, elə bil hər şey köç karvanına dönüb yaylaqlara axışır, sanki bütün Peterburq bir az sonra boş bir səh-

1. Dilican – dördtəkərli poçt və ya minik arabası – Red.

raya çevriləcək. Nəhayət, bütün bunlar məni elə vəziyyətə gətirdi ki, varlığımı bürüyən həya, miskinlik və kədər hisslərindən nə edəcəyimi bilmədim; mənim bağ evlərində heç kəsim və heç nəyim yox idi. Mən qarşıma çıxan hər hansı bir arabada, hər hansı mötəbər, nüfuzlu cənabın faytonunda oralara getməyə hazır idim; lakin heç kəs, bəli, heç kəs məni öz yanına dəvət etmirdi; sanki məni unutmuşdular, sanki mən onların nəzərində, həqiqətən də, yad bir adam olmuşdum!

Uzun müddət gəzdim, belə ki, adətim üzrə harada olduğumu tamamilə unudanda qəfil xəyalatdan ayılıb özümü şəhər darvazasının yanında gördüm. Bir an içərisində qəlbimə sevinc doldu və mən şəhər darvazasının o tərəfinə keçdim, şumlanmış çöllərin və yaşıl çəmənlərin arası ilə addımlamağa başladım, yorğunluğuma baxmayaraq, üstümdən bir yükün tədricən yox olub getdiyini duydum. Yoldan ötənlər mənə elə mehribanlıqla baxırdılar ki, guya bu saat baş əyib keçəcəkdilər; hamı nəyə isə sevinirdi, az qala hamı siqar çəkirdi. Məni də bu vaxta qədər hiss etmədiyim bir fərəh bürümüşdü. Elə bil birdən-birə, lap İtaliyaya gəlib çıxmışdım, bax təbiətin gözəlliyi Peterburq evləri arasında az qala boğulan yarımcan şəhərliyə bu dərəcədə qüvvətli təsir göstərmişdi.

Bahar gələrkən birdən-birə bütün qüdrəti, göylərin bəxş etdiyi bütün gözəlliyi üzə çıxan, yaşıllıqlardan